**UDC:** 31.; 297.
**LBC:** 60.55; 86.2\3
**MJ №** 304
10.33864/2617-751X.2025.v8.i4.128-141

# CIVIL RELIGION IN AMERICA: BASED ON ROBERT BELLAH'S THEORY

**Lamiya Jafarova***
**Asaf Ganbarov****

**Abstract.** This article analyzes the emergence and development process of the concept of civil religion, particularly based on Robert Bellah's theory, and the situation in American society. The views of classical theorists such as Jean-Jacques Rousseau and Émile Durkheim are included in the article, and the role of civil religion in social integration and the formation of national identity is emphasized. Various theories and approaches related to civil religion in the United States are discussed. First, it tries to understand how this society formed a civil religion, considering the founding of American society and the coming together of various cultures. The religious and cultural symbols used in the foundation of the United States, especially comparisons related to figures such as George Washington and Abraham Lincoln, show how America's national identity created harmony with religious elements. Bellah's work "Civil Religion in America" extensively studies the concept of civil religion and presents a unique belief system of the United States related to religion, national identity, and the sacred mission of the state. This civil religion, without being related to any specific religious denomination, incorporates the shared beliefs and values of a particular people. Bellah emphasizes that this civil religion constitutes the foundation of the American state structure and the spiritual connection felt by every citizen. It analyzes the development of civil religion in America and how it influences various aspects of society. In addition, it brings to the agenda the changes and problems Bellah's theory faces in contemporary American society.

**Keywords:** Civil religion, Rousseau, Durkheim, Bellah, USA

---

* Master's student of the "Sociology of Religion" specialty at the Azerbaijan Theological Institute; Baku, Azerbaijan (corresponding author)
E-mail: cafarovalamiya3@gmail.com
https://orcid.org/0009-0008-8904-8743
** Doctor of Philosophy in Sociology, Associate Professor,
Associate Professor of the Theology Institute of Azerbaijan; Baku, Azerbaijan
E-mail: asefganbarov@ait.edu.az
https://orcid.org/0000-0002-6082-6029
**To cite this article:** Jafarova, L., & Ganbarov, A. [2025]. CIVIL RELIGION IN AMERICA: BASED ON ROBERT BELLAH'S THEORY. *"Metafizika" journal*, *8*(4), pp.128-141.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.128-141

**Article history:**
*Received: 31.10.2024*
*Accepted: 03.03.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

**УДК:** 31.; 297.
**ББК:** 60.55; 86.2\3
**MJ №** 304
10.33864/2617-751X.2025.v8.i4.128-141

# ГРАЖДАНСКАЯ РЕЛИГИЯ В АМЕРИКЕ: НА ОСНОВЕ ТЕОРИИ РОБЕРТА БЕЛЛАХА

**Ламия Джафарова***
**Асаф Ганбаров****

**Абстракт.** В данной статье анализируется возникновение и процесс развития понятия гражданской религии, особенно на основе теории Роберта Беллаха, а также положение в американском обществе. В статье представлены взгляды таких классических теоретиков, как Жан-Жак Руссо и Эмиль Дюркгейм, и подчеркивается роль гражданской религии в социальной интеграции и формировании национальной идентичности. Обсуждаются различные теории и подходы, связанные с гражданской религией в Соединённых Штатах. Прежде всего, рассматривается, как это общество сформировало гражданскую религию с учетом основания американского общества и объединения различных культур. Религиозные и культурные символы, использованные при создании Соединённых Штатов, особенно сравнения, связанные с такими личностями, как Джордж Вашингтон и Авраам Линкольн, показывают, как национальная идентичность Америки гармонирует с религиозными элементами. Работа Беллаха «Гражданская религия в Америке» подробно изучает понятие гражданской религии и представляет собой уникальную систему верований, связанную с религией, национальной идентичностью и священной миссией государства. Эта гражданская религия, не относясь ни к одному конкретному религиозному течению, объединяет общие верования и ценности определённого народа. Беллах подчеркивает, что данная гражданская религия составляет основу государственного устройства Америки и духовной связи, ощущаемой каждым гражданином. Анализируется развитие гражданской религии в Америке и её влияние на различные аспекты общества. Кроме того, поднимаются изменения и проблемы, с которыми сталкивается теория Беллаха в современном американском обществе.

**Ключевые слова:** Гражданская религия, Руссо, Дюркгейм, Беллах, США

---

* Магистрант по специальности «Социология религии» Азербайджанского теологического института; Баку, Азербайджан (ответственный автор)
E-mail: cafarovalamiya3@gmail.com
https://orcid.org/0009-0008-8904-8743
** Доктор философии по социологии, доцент,
Доцент Азербайджанского института теологии; Баку, Азербайджан
E-mail: asefganbarov@ait.edu.az
https://orcid.org/0000-0002-6082-6029
**Цитировать статью:** Джафарова, Л., & Ганбаров, А. [2025]. ГРАЖДАНСКАЯ РЕЛИГИЯ В АМЕРИКЕ: НА ОСНОВЕ ТЕОРИИ РОБЕРТА БЕЛЛАХА. *Журнал «Metafizika»*, *8*(4), c.128-141.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.128-141

**История статьи:**
*Статья поступила в редакцию: 31.10.2024*
*Отправлена на доработку: 29.11.2024*
*Принята для печати: 03.03.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

*“Metafizika” Journal*
*Vol 8, issue 4, serial 32, 2025. pp.128-141*

*AcademyGate Publishing*
*p-ISSN 2616-6879; e-ISSN 2617-751X*

**UOT:** 31.; 297.
**KBT:** 60.55; 86.2\3
**MJ №** 304
10.33864/2617-751X.2025.v8.i4.128-141

# AMERİKADA SİVİL DİN: ROBERT BELLAHIN NƏZƏRİYYƏSİ ƏSASINDA

**Lamiyə Cəfərova***
**Asəf Qənbərov****

**Abstrakt.** Bu məqalə sivil din anlayışının meydana çıxması və inkişaf prosesini, xüsusilə Robert Bellahın nəzəriyyəsi əsasında, Amerika cəmiyyətindəki vəziyyəti təhlil edir. Məqalədə Jan-Jak Russo və Emil Dürkheym kimi klassik nəzəriyyəçilərin baxışlarına yer verilir və sivil dinin sosial inteqrasiya və milli kimliyin formalaşmasında oynadığı rol vurğulanır. Amerika Birləşmiş Ştatlarının sivil dini ilə əlaqəli müxtəlif nəzəriyyələr və yanaşmalar müzakirə olunur. İlk olaraq Amerika cəmiyyətinin yaranışını və müxtəlif mədəniyyətlərin bir araya gəlməsini nəzərə alaraq, bu cəmiyyətin sivil dini necə formalaşdırdığını anlamağa çalışır. Amerika Birləşmiş Ştatlarının qurulmasında istifadə olunan dini və mədəni simvollar, xüsusilə George Washington və Abraham Lincoln kimi şəxsiyyətlərə aid müqayisələr, Amerikanın milli kimliyinin dini elementlərlə necə harmoniya yaratdığını göstərir. Bellahın “Amerikada sivil din” adlı əsəri, sivil din anlayışını geniş şəkildə tədqiq edir və Amerikanın dinlə, milli kimliklə və dövlətin müqəddəs missiyası ilə bağlı unikal bir inanc sistemini təqdim edir. Bu sivil din, heç bir konkret dini cərəyanla əlaqəli olmadan, xüsusi bir xalqın ortaq inanclarını və dəyərlərini özündə birləşdirir. Bellah, bu sivil dinin Amerikanın dövlət quruluşunun və hər bir vətəndaşının hiss etdiyi mənəvi bağlılığın əsasını təşkil etdiyini vurğulayır. Amerikadakı sivil dinin inkişafını və onun cəmiyyətin müxtəlif aspektlərinə necə təsir etdiyini təhlil edir. Bununla yanaşı, Bellahın nəzəriyyəsinin müasir Amerika cəmiyyətindəki dəyişiklikləri və qarşılaşdığı problemləri də gündəmə gətirir.

**Açar sözlər:** sivil din, Russo, Dürkheym, Bellah, ABŞ

---

* Azərbaycan İlahiyyat İnstitutu “Dinin sosiologiyası” ixtisasının magistrantı; Bakı, Azərbaycan (məsul müəllif)
E-mail: cafarovalamiya3@gmail.com
https://orcid.org/0009-0008-8904-8743
** Sosiologiya üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan İlahiyyat İnstitutunun dosenti; Bakı, Azərbaycan
E-mail: asefganbarov@ait.edu.az
https://orcid.org/0000-0002-6082-6029

**Məqaləyə istinad:** Cəfərova, L., & Qənbərov, A. [2025] AMERİKADA SİVİL DİN: ROBERT BELLAHIN NƏZƏRİYYƏSİ ƏSASINDA. *“Metafizika” jurnalı, 8*(4), səh.128-141.
https://doi.org/10.33864/2617-751X.2025.v8.i4.128-141

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 31.10.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 29.11.2024*
*Çapa qəbul edilmişdir: 03.03.2025*

**Copyright: © 2025 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

“Sivil din” anlayışı, xüsusilə Qərb mədəniyyətində – dinin institusional bir forması olan kilsənin əksər hallarda dövlət strukturlarından və qismən də cəmiyyətin sosial-mədəni quruluşundan uzaqlaşdığı dövrdə meydana çıxan bir anlayış kimi ortaya çıxmışdır. Xristianlıq, yəni Katolisizmdən doğan boşluğu doldurmaq məqsədi daşıyan və “müqəddəs din”-in əksi kimi nəzərdə tutulan “*sivil din*”, İslam dinindəki anlayışdan bir sıra mühüm fərqlərlə seçilir. Xristian dünyagörüşündə sivil din, müqəddəs dinin yerini almağa çalışır. Lakin İslam baxımından sivil din, dövlətlə heç bir şəkildə əlaqəsi olmayan, tamamilə vəhyə əsaslanan bir din olaraq qalır.

Amerika Birləşmiş Ştatları, qəbilə halında yaşayan yerli icmaların və cənubdan gələn Latın Amerikalıların yerləşdiyi bir coğrafiyada kolonizasiya fəaliyyəti ilə qurulmuş bir dövlətdir. Çox fərqli mədəniyyətlərdən olan insanların miqrasiya yolu ilə bu koloniyalara əlavə olunması nəticəsində formalaşan bu dövlət, sivil dinin tədqiqi üçün maraqlı bir nümunədir. Həmin koloniyalar, bəlkə də uzun illərə yayılan müstəqillik mübarizəsi və dövlət qurma prosesi zamanı cəmiyyət müqaviləsi nəzəriyyələrinin geniş müzakirə edildiyi ilk nümunələrdəndir. Bu baxımdan, 1787-ci il tarixli ABŞ Konstitusiyasında və konstitusiyanın hazırlanması prosesində də göründüyü kimi, azadlıq koloniyaların ən çox önəm verdiyi məsələlərdən biri olmuşdur. Bir-biri ilə əsasda sıx əlaqəsi olmayan dövlətlərdən ibarət olan və yeni dövlətlərin qoşulması ilə genişlənən bir birliyi ortaq dəyərlər ətrafında “Amerikalılıq” şüuruna qovuşdurmaq, dövrün şərtləri nəzərə alındıqda, başlı başına bir çətinlik kimi qiymətləndirilə bilər. Əslində, bu hədəf, İngiltərədən gətirilən, Protestant ənənəsinə bağlı bəzi rituallarla ilk mərhələdə müəyyən qədər təmin edilsə də, bunun üzərinə Amerikan kimliyinin də əlavə edilməsi lazım gəlmişdir.

## 2.Sivil din nədir?

Sivil din ideyası ilk dəfə 1762-ci ildə Jan-Jak Russo tərəfindən ortaya atılmışdır. Onun “İctimai Müqavilə” əsərində Russo, müasir bir cəmiyyətin ruhani və mənəvi baza olmadan mövcud ola bilməyəcəyini göstərmişdir. Sivil dini “ictimai sement” adlandıran Russo, kitabında sivil dinin əsas dogmalarını belə izah edir: “Tanrının varlığı, axirət həyatı, fəzilətin mükafatlandırılması və vicdansızlığın cəzalandırılması, dini dözümsüzlüyün isə rədd edilməsi”. Russo üçün sivil din anlayışı, dövrünün maarifçi inqilabçıları üçün mühüm idi, çünki sivil dinin liderlər tərəfindən yaradılması və təşviq edilməsi məntiqli bir addım olduğunu düşünürdü. Bu düşüncə Amerika liderlərinin seçki kampaniyalarında, ictimai dəstək axtarışında və ya sosial dəyişikliklər uğrunda mübarizələrində də özünü göstərir- xalq ruhunu və birliyi səfərbər etməyə xidmət edirdi [Akdemir, 2020, 287-289]. Lakin Russo-nun sivil din

nəzəriyyəsi ilk olsa da onun "zehni varisi" sayılan Emil Dürkheymin tapıntıları da müasir sivil dinin formalaşmasında bir o qədər təsirli olmuşdur. Dürkheim "Dini Həyatın Elementar Formları" əsərində qeyd edir ki, cəmiyyət daxilində insanlar kollektiv şəkildə, bütün vətəndaşlara ortaq olan bir "sivil din" formalaşdırır baxmayaraq ki, o heç vaxt bu ifadəni birbaşa istifadə etmir. Russo-dan fərqli olaraq, Dürkheym hesab edir ki, sivil din sadəcə liderlərin ortaya çıxardığı bir vasitə deyil əksinə ictimai həyatın özündən yaranan bir xüsusiyyətdir və sabit bir cəmiyyət üçün zəruri amildir. O bildirir: Özlərini qismən qan bağları ilə, lakin daha çox ortaq maraq və ənənələrlə birləşmiş hiss edən insanlar bir yerə toplaşır və mənəvi birliklərinin fərqinə varırlar. Aydın olur ki, Dürkheym vətəndaşları ortaq bir məqsəd ətrafında birləşdirə biləcək bir inanc sisteminin, simvollar və rituallar vasitəsilə cəmiyyətin işləkliyinin əsasını təşkil etdiyini müdafiə edir. Burada bu ritualların və simvolların doğruluğu və ya yanlışlığı deyil, onların funksionallığı əsas meyar kimi götürülür. Dürkheym dinin mahiyyətini müəyyənləşdirərkən, sadəcə, Tanrı inancını vəayinləri vurğulamağı kifayət hesab etmirdi. Məsələn din ilə sehri (magiya) müqayisə edərək deyir: "Sehr də, eyni zamanda, inanc və rituallara malikdir. Dinlər kimi onun da mifləri və təlimləri vardır. Buna baxmayaraq, dini inanclar həmişə müəyyən bir qrup tərəfindən ümumi şəkildə həyata keçirilir. Din yalnız fərdləri deyil, bütün qrupu maraqlandıran kollektiv hadisədir. Sehrin isə kilsəsi (dini qrupu) yoxdur [Qənbərov, 2024, 118].

Amerika cəmiyyətindən bəhs edərkən qeyd etmək lazımdır ki, burada "cəmiyyətin dini" adlandırıla biləcək vahid bir din mövcud deyildir. Amerika bir miqrantlar ölkəsidir. Miqrantlar ölkəsinin dini strukturu da təbii olaraq müxtəliflik göstərir. Nəticə etibarilə eyni din daxilində belə son dərəcə fərqli dini şərhlərə rast gəlmək mümkündür. Məsələn Amerikada bir polyak katoliklə bir irlandiyalı katolikin eyni anda eyni kilsədə ibadət etməsi belə asanlıqla baş verə bilən bir hal deyil. Hətta eyni konfessiya daxilində belə bu cür problemlər yaşanır. Katoliklərlə protestantlar arasındakı münasibətlərdəki fərqlilikləri isə xüsusi qeyd etməyə ehtiyac belə yoxdur. Dövlət öz tarixini rasional, konkret və tək tipləşdirilmiş bir perspektivdən formalaşdırır, bu baxış bucağından çıxış edərək həm rəsmi tarix, həm də milli kimlik qurur. Belə yanaşmada baş verən hadisələr yalnız bu rəsmi tarix şərhi üzərindən izah olunur. Bu rəsmi tarix anlayışına uyğun gəlməyən bütün alternativ rənglər və fərqliliklər isə aradan qaldırılmağa çalışılır [Ataman, 2017, 146-150]. Amerika Birləşmiş Ştatlarında da buna bənzər bir proses müşahidə olunmuşdur. Yerli xalqların məhv edilməsi, Afrikadan kölə kimi gətirilən qaradərili insanların zəngin dini və mədəni irsinin yox edilməsi və nəticədə tam mənası ilə Ağ Anglo-Sakson Protestant (*White Anglo-Saxon Protestant-* WASP) həyat tərzinin hakim olmasını nümunə göstərə bilərik. Yankee obrazı ilə təcəssüm edən bu həyat

tərzi, Amerikanın rəsmi həyat tərzinə çevrilmişdir. Will Herberg kimi tədqiqatçılar bu Amerikan həyat tərzini “Amerikan sivil dini” kimi xarakterizə edir və onun üç əsas dayağını qeyd edirlər: Protestantlıq, Katoliklik və Yəhudilik. Will Herberg hələ 1950-ci illərdə bu anlayışdan bəhs edirdi. Həmin dövrə nəzər saldıqda Amerika cəmiyyətində yəhudilərin geniş şəkildə qəbul olunmadığı görünür. Lakin Herberg – özü də bir yəhudi idi. “Protestant, Catholic and Jew” adlı əsərində, bir növ özünü doğruldan bir proqnoz olaraq siyasi bir mif qurmağa çalışırdı. Bu təşəbbüs Amerikanın tək tipləşdirici tarix oxunuşuna qarşı bir müqavimət forması kimi qiymətləndirilə bilər. Müasir dövrdə də bənzər proseslər müşahidə edilir, bu keçid mərhələsini bir zamanlar katoliklər, daha sonra buddistlər və hindular yaşadıqları kimi hazırda müsəlmanlar da yaşayırlar [Williams, 1985, 156-157]

İnsanlar həyatlarını, azadlıqlarını və mülkiyyətlərini qorumaq məqsədilə bir-biri ilə birləşir və cəmiyyət qururlar. Locke-ın fikrincə dövlət çərçivəsində yaradılan qanunlar hüquqların istifadəsindəki qeyri-müəyyənliyi aradan qaldırır, hüquq-mühafizə orqanları isə fərdlərin hüquqlarını müdafiə edir [Bellah, 2006, 45-48]. Russo isə təbii vəziyyətdə insanların müxtəlif maneələrlə qarşılaşa biləcəyini və bu maneələrin fərdlərin yaşamaq üçün sərf etdiyi gücü aşdığını qeyd edir. Belə bir vəziyyətdə insanlar həyat tərzlərini dəyişdirməsələr, məhv olmağa məhkumdurlar. Russo bu problemi həll etmək üçün fərdlərin güclərini birləşdirərək vahid bir iradə yaratmalarının zəruri olduğunu bildirir. O, ictimai müqaviləsini fərdlərin bütün hüquq və güclərini ümumi iradəyə təhvil verdiyi və beləliklə bütöv bir hüquqi varlıq meydana gətirdikləri bir razılaşma kimi təsvir edir. Bu müqavilə nəticəsində hüquqi şəxsiyyətə malik bir siyasi birlik yaranır və fərdlər daha güclü şəkildə özlərini müdafiə edə bilirlər. Russo hesab edir ki, yalnız ictimai müqavilə bağlamaq cəmiyyətin davamlılığı üçün kifayət etmir. Bu fərdləri bir yerdə saxlayacaq bir sivil din də zəruridir. Russo qeyd edir ki, insanların tarixdəki ilk siyasi təşkilatlanmaları əsasən dini inanclara, xüsusilə də tanrıların və padşahların hakimiyyətinə əsaslanırdı. O, politeizm, yəhudilik və xristianlığı təhlil edərək bu dinlərin ictimai həyat üçün mənfi tərəflərini vurğulayır. Russoya görə, hər siyasi cəmiyyətin öz tanrısı olmalıdır. Bir-birinə düşmən olan xalqlar eyni tanrıya inana bilməzlər, çünki bu, dini və ictimai dözümsüzlüyə səbəb olur. Xristianlığın həm dini, həm də siyasi hakimiyyət- papa və hökmdar- yaratması cəmiyyətlərdə güc bölgüsündə anlaşılmazlıqlar doğurmuş və nəticədə effektiv siyasətin qarşısını almışdır. Bu səbəbdən insanlar hansı hakimiyyətə itaət edəcəklərini seçməkdə çətinlik çəkmişlər [Ataman, 2014, 185].

Asəf Qənbərov qeyd edir ki, T.Lukmanın qələmə aldığı “Görünməyən din” əsərində sivil din anlayışından geniş istifadə etmişdir. Sivil din dünyəvi cəmiyyətlərdə əsas inteqrasiya edici vasitə olaraq, dövlət rəmzlərinin, Vətən

anlayışının və digər sekulyar dəyərlərin müqəddəs qəbul edilməsi kimi başa düşülür. Əsasən, Amerika Dövləti ilə bağlı olduğu qeyd edilsədə, sivil din anlayışı bütün millət dövlətlərdə mühüm yer tutur. Müasir dövlətlərdə milli, tətil günləri, ümummilli matəm günlərinin qeyd edilməsi, xalq qəhrəmanlarının, dövlət qurucu liderlərinin xatirəsinin yad edilməsi, o cümlədən dövlət əhəmiyyətli abidə və məzarların ziyarət mərasimləri sivil dinin mühüm elementləri hesab olunur [Qənbərov, 2022, 100-101].

**3.Amerikada sivil din**

Siyasi sivil din, dövlətin birliyi və legitimliyini təmin etmək məqsədilə qurulan ideoloji və simvolik sistemdir. Burada məqsəd, vətəndaşların müəyyən ortaq dəyərlərə, simvollara və rituallara inanaraq siyasi hakimiyyəti mənəvi cəhətdən dəstəkləməsidir. Siyasi sivil din, çox vaxt dövlətin rəsmi ideologiyası və ya milli kimliyi ətrafında formalaşır və fərdləri siyasi məqsədlərə yönəltmək üçün istifadə edilir. Bu tip sivil din, bəzən rəsmi dövlət mərasimlərində, milli bayramlarda, konstitusiyaya və vətənə sadiqlik andlarında özünü göstərir. Məsələn Amerika Birləşmiş Ştatlarında bayrağa sadiqlik andı və prezident andiçmə mərasimləri siyasi sivil dinin nümunəsi kimi qiymətləndirilə bilər. Digər tərəfdən, mədəni sivil din daha çox cəmiyyətin ümumi dəyərləri, ortaq inancları və gündəlik həyat tərzi əsasında formalaşır. Bu növ sivil din, dövlətin rəsmi strukturlarından asılı olmadan, cəmiyyətin içindən təbii şəkildə doğur və fərqli qruplar arasında sosial həmrəylik yaradır. Mədəni sivil dinin əsas xüsusiyyəti odur ki, burada məqsəd siyasi legitimlik yaratmaq deyil, mədəni kimliyi və ictimai birliyi qorumaqdır. Dil, adətlər, bayramlar, simvollar və ictimai davranış qaydaları bu növ sivil dinin əsas elementlərini təşkil edir [Çiçek, 2022, 224-235].

Amerika Birləşmiş Ştatları, ərazisində yerli tayfa icmalarının və cənubdan köç etmiş Latın Amerikalıların yaşadığı bir coğrafiyada koloniya fəaliyyətləri nəticəsində formalaşmış bir dövlət modelidir. Fərqli mədəniyyətlərdən olan insanların müxtəlif dalğalar şəklində miqrasiyası nəticəsində bu koloniyalara əlavə olunması ilə meydana gələn Amerika cəmiyyəti, sivil din araşdırmaları üçün xüsusilə maraqlı bir nümunə təşkil edir. Bu koloniyalar, uzun illərə yayılan müstəqillik mübarizəsi və dövlət quruculuğu prosesində "ictimai müqavilə" nəzəriyyələrinin müzakirə edildiyi ilk tarixi təcrübələrdən biri kimi qəbul edilə bilər. Bu baxımdan 1787-ci ildə qəbul edilən ABŞ Konstitusiyası və onun hazırlanma mərhələsi göstərir ki, azadlıq və fərdi hüquqlar koloniyaların ən əsas prioritetləri arasında yer almışdır. Bir-birilə əsaslı və möhkəm bağlarla birləşməyən çoxsaylı dövlətlərin yaratdığı və sonradan yeni ştatların qoşulması ilə genişlənən bu birlik içərisində "Amerikalılıq" şüurunun ortaq dəyərlər əsasında formalaşdırılması dövrün şərtləri nəzərə alındıqda böyük bir çətinlik kimi qiymətləndirilə bilər.

Əslində, bu birliyi yaratmaq məqsədi ilk mərhələdə İngiltərədən miras qalmış, protestant ənənəsinə bağlı müəyyən dini rituallar vasitəsilə təmin edilməyə çalışılmışdır. Lakin zamanla bu dini elementlərin üzərinə xüsusi olaraq “Amerikan kimliyi” anlayışının əlavə edilməsi zərurəti yaranmışdır [Düzce, 2020, 385-396].

Amerikan sivil dini ilə bağlı ən çox diqqət çəkən məsələlərdən biri, Amerika Birləşmiş Ştatlarının qurucusu George Washingtonun, Amerikalılar tərəfindən Hz. Musa ilə əlaqələndirilməsidir. Beləliklə, Hz. Musanın İsrailoğullarını Misirdən qurtarıb Vəd edilmiş Torpaqlara (Promised Land) aparması kimi, George Washington da Amerikan xalqını Böyük Britaniya əsarətindən qurtarıb azad etmişdir. Ayrıca, qeyd etmək lazımdır ki, bu müqayisədə Misir Avropaya, Vəd edilmiş Torpaqlar isə Amerika Birləşmiş Ştatlarına uyğun gəlir. Kitabda da qeyd edildiyi kimi, Amerikan sivil dininin mövzularından biri seçilmişlik mövzusudur və bununla əlaqəli olaraq Yeni İsrail (New Israel) mövzusu da vardır. Bu nəzəriyyəyə görə Amerika Birləşmiş Ştatları, Avropadakı dini təzyiqlərdən qaçanlar üçün yeni bir İsraildir. Necə ki, Tanrı qədim dövrdə yerüzündəki muradını həyata keçirmək üçün Yəhudiləri seçmişsə, müasir dövrdə bu işi görmək üçün Amerika Birləşmiş Ştatlarını seçmişdir [Ataman, 2014, 154-160]. George Washingtonun vəziyyəti Amerika Birləşmiş Ştatlarının 16-cı prezidenti olan Abraham Lincoln üçün də eynilə keçərlidir. Lincolnun həyatı və köləliyin ləğvi uğrunda verdiyi mübarizə və faciəvi sonu kimi hadisələr, Xristianlığın simvolizmi ilə əlaqələndirilərək “*bütün insanlığın günahları üçün özünü qurban verən İsa*” ilə xüsusiləşdirilir. Məsələn, aralarındakı zaman fərqinə baxmayaraq, Lincoln da, Hz. İsa kimi, Müqəddəs Cümə (Good Friday) günü (1865) qətlə yetirilərək, Amerikan cəmiyyətinin gələcəyi üçün son qiyməti ödəməsi, sivil din üçün yüksək əhəmiyyət kəsb edirdi [Ataman, 2017, 158].

Bugünkü Amerika cəmiyyəti Avropadan və sonradan yaranan digər qitələrdən gələn kütləvi köçlərlə formalaşmışdır. XVII əsrin əvvəllərindən etibarən Amerikaya kütləvi köçlər axın etmiş və bu köçlərlə gələn ilk məskunlaşan on üç fərqli koloniya qurmuşlar. Yeddi illik müharibədən sonra İngiltərənin bu koloniyalara ağır vergilər tətbiq etməsi, buna qarşı koloniyaların ingilis parlamentində təmsil olunmaması koloniyada narazılığa səbəb olmuşdur. Beləliklə, 1775-ci ildə daxili müharibə kimi başlayan Amerikan İnqilabı, 1778-ci ildən etibarən Fransanın, İspaniyanın və Hollandiyanın koloniyalarını dəstəkləməsi ilə bir müstəqillik mübarizəsinə çevrilmişdir. 1783-cü ildə sona çatan müharibənin ardından 1787-ci ildə qəbul edilən Amerika Konstitusiyası, Amerika müstəqilliyinin simvolu olmuşdur. Bu baxımdan konstitusiya Amerikan millətçiliyinin və dolayısıyla sivil dininin simvollarından ən önəmlilərindən biri hesab edilə bilər [Williams, 1985, 159-161].

Russo sivil dini, cəmiyyətin siyasi və əxlaqi əsaslarının möhkəmləndirilməsi məqsədilə suveren iradə tərəfindən müəyyən edilən və ictimai həmrəyliyə təşviq edən dini etiqadlar toplusu kimi dəyərləndirir. Onun nəzərində bu dinin əsasını aşağıdakı doqmalar təşkil edir: mütləq gücə malik, müdrik, hər şeyi əvvəlcədən bilən, xeyirxah və mərhəmətli bir Tanrıya inanmaq, bəd əməllərin cəzalandırılacağına etiqad, eləcə də qanunların müqəddəs qəbul edilməsi. Rousseau bu doqmaların dövlətin əsas sütunlarını möhkəmləndirəcəyini və fərdləri təkcə hüquqi deyil, həm də əxlaqi baxımdan birləşdirəcəyini iddia edir. O, belə bir sivil dinin yaradılmasını və cəmiyyətin ona daxildən, könüllü şəkildə bağlı olmasının ictimai nizam və sabitliyin təmin olunmasında həlledici rol oynadığını vurğulayır [Russo, 2022, 162-163]. Emil Dürkheym, birbaşa "sivil din" ifadəsini istifadə etməsə də, cəmiyyətin davamlılığını təmin edəcək bir dinə ehtiyac olduğu düşünür. Emil Durkheim siyasi cəmiyyətlərin struktur və funksiyalarını şərh edərkən, onların təkcə hüquqi və inzibati çərçivədən ibarət olmadığını vurğulayır. Onun fikrincə, belə cəmiyyətlərdə təşkilatlanmış rəsmi kilsələrlə yanaşı, heç bir konkret orqana aid olmayan lakin cəmiyyətin bütün üzvləri tərəfindən paylaşılaraq sosial birliyi təmin edən ümumi təsəvvürlər, doqmalar, miflər, əxlaqi və tarixi ənənələr də mövcuddur. Durkheim, bunlarla yanaşı dövlətə birbaşa aid olmayan, lakin cəmiyyəti müəyyən istiqamətlərə doğru yönləndirə bilən sosial axınların da daim mövcudluğunu qeyd edir. Bu sosial axınlara dövlət tərəfindən nəzarət oluna bilməz, əksinə çox zaman dövlət bu axınların təsiri altına düşür. Başqa sözlə cəmiyyət yalnız siyasi və hüquqi məzmunla deyil, eyni zamanda ortaq şəkildə yaşanan və paylaşılaraq davam etdirilən psixoloji bir həyatla da müəyyən olunur [Akdemir, 2020, 292-302].

Dürkheym bu ortaq psixoloji həyatın formalaşmasında dini rituallar və simvollara xüsusi əhəmiyyət verir. Onun fikrincə, fərdi şüur təkbaşına mövcud olduqda bir-biri ilə əlaqə qura bilməzlər. Fərdlərin qarşılıqlı şəkildə əlaqələnməsi və ictimai birlik yaratmaları yalnız simvollar və rituallar vasitəsilə mümkündür. Bu simvollar fərdi hiss və təcrübələrin ümumiləşdirilərək bir kollektiv mənaya çevrilməsini təmin edir. Bu baxımdan cəmiyyətdə qarşılıqlı iştirakın baş verməsi üçün fərdi duyğuların vahid bir məna məkanında birləşməsi zəruridir. Ortaq rituallarda iştirak edən, eyni sözləri söyləyən və eyni hərəkətləri yerinə yetirən fərdlər, nəticədə ortaq bir kimlik formalaşdırır. Beləliklə fərdlər bir cəmiyyətin üzvü olduqlarının fərqinə varır və kollektiv bir varlığın tərkib hissəsi olduqlarını dərk edirlər. Durkheimin fikrincə, fərdi şüurun öz fərdiliyindən çıxaraq bir-biri ilə qarşılaşmaları yalnız kollektiv hərəkət – yəni ictimai rituallar və simvolik davranışlar – vasitəsilə mümkün olur. Cəmiyyətin mövcudluğu və özünün fərqində olması isə bu ortaq hərəkətlərin fasiləsizliyi ilə təmin edilir. Dini

olduğu qədər dünyəvi (sekulyar) köklərə də malik olan Şükran Günü, 1860-cı illərə qədər əsasən Şərq sahillərində qeyd olunan ənənəvi bir bayram olaraq qalmışdır. Ancaq yazıçı və jurnalist Sarah J. Hale-in 20 il davam edən təbliğat araşdırmalarının nəticəsində bu bayram bütün ölkə səviyyəsində rəsmi olaraq qeyd edilməyə başlanmışdır. Beləliklə ümummilli qəbul qazandıqdan sonra Şükran Günü də Durkheimçi anlayışda sivil dinin bir komponenti və cəmiyyətin inteqrasiyasına töhfə verən bir ritual kimi qiymətləndirilə bilər. Bu gün də ABŞ-da hər il noyabr ayının dördüncü cümə axşamı, Kanadada isə oktyabr ayının ikinci bazar ertəsi günü məhsul bayramı və keçən ilin nemətlərinə şükür məqsədilə Şükran Günü qeyd edilməkdədir.

Amerikada sivil dinə başqa bir nümunə isə ABŞ-ın Müstəqillik Günüdür. 2 iyul 1776-cı ildə Amerika Konqresinin İngiltərədən müstəqillik yönündə qərar qəbul etməsi və iki gün sonra 4 iyulda Amerika Müstəqillik Bəyannaməsinin qəbul olunmasından sonra bu tarix rəsmi olaraq “Müstəqillik Günü” kimi qeyd edilməyə başlanmışdır. XVII və XVIII əsrlərdə bu bayram kilsə zənglərinin çalınması, tonqalların yandırılması, yürüşlər və ictimai çıxışlarla qeyd edilir, bu mərasimlərdə monarxiyanın sonu, tiranlığın məğlubiyyəti və azadlığın doğuşu simvollaşdırılırdı. Amerika cəmiyyətinin genişlənməsi və müxtəlifləşməsi ilə bu tarix yalnız siyasi partiyaların deyil müxtəlif ictimai qrupların da sahibləndiyi vətənpərvər bir ənənəyə çevrilmişdir. Sənaye cəmiyyətinin inkişafı və boş vaxtların artması ilə Müstəqillik Günü əsas yay tətili tədbirlərindən birinə çevrilmişdir. Lakin XIX əsrin sonu və XX əsrin əvvəllərində, bu bayramla bağlı spirtli içki istehlakının artması və hava fişəklərin səbəb olduğu çoxsaylı xəsarətlər bir sıra islahatçını “təhlükəsiz və ağıllı 4 iyul” hərəkatına başlamağa sövq etmişdir [Çekin, 2013, 23-28].

1967-ci ildə amerikalı sosioloq Robert Bellah “Amerikada sivil din” adlı əsər yazmışdır. Bu əsər sivil din nəzəriyyəsinin tədqiqi və müzakirəsi üçün bir başlanğıc nöqtəsi olmuş və “sivil dinin əsl müddəalarını müəyyənləşdirməyə” çalışmışdır. Bellah qeyd edir ki, Amerikada kilsələrdən fərqlənən, lakin onlarla yanaşı mövcud olan geniş şəkildə qurumlaşmış və yaxşı təşkilatlanmış bir sivil din gerçəkdən də vardır. Bellah və dövrün bir çox sosioloqu üçün sivil din nə tam şəkildə institusional bir din idi, nə də sadəcə millətçiliyin bir aspekti idi. Bu, hər iki xüsusiyyəti özündə birləşdirən və bir xalqın bütün vətəndaşları tərəfindən qəbul edilə bilən bir “din” idi- yəni, Amerika milləti haqqında müqəddəs inanclar toplusu şəklində qurumlaşmış bir inanc sistemidir. Bellaha görə, Amerikanın sivil dini özünə məxsus bir inanc sistemidir, hansı ki, xüsusi müqəddəs simvollara sahibdir və heç bir dini cərəyan və ya kilsənin təlimləri ilə əlaqəli deyil. Bu din xristian ənənəsinə əsaslansa da, onun simvolları və mənaları yalnız Amerikanın özünə aiddir. Kilsələr sivil dinin inkişafına dəstək versələr də, bu dinin ənənələrinin qoruyucuları deyil [Demirel, 2019, 5-8] İlk

dəfə Jan Jak Russo və Emil Dürkeymin əsərlərindən qaynaqlanan sivil din anlayışı, Bellah üçün müasir Amerika cəmiyyətində öz əksini tapmış və ABŞ prezidentlərinin andiçmə nitqlərində konkret şəkildə təzahür etmişdir. Məsələn 1961-ci ildə Con F.Kennedinin verdiyi andiçmə nitqindəki "Mən sizlərin və Ulu Tanrının qarşısında bizim sələflərimizin demək olar ki, bir əsr yarım əvvəl müəyyənləşdirdiyi həmin ciddi andı içmişəm" ifadəsində "Tanrı" anlayışının konkret bir dini ənənəyə bağlı bir tanrıya deyil, daha çox "Amerikanın Tanrısı" anlayışı çərçivəsində sivil xarakterli bir Tanrıya istinad etdiyi Bellah tərəfindən qeyd olunur. Amerikadakı sivil din, millətçiliyi ehtiva etməklə yanaşı, amerikalıların böyük əksəriyyətinin paylaşdığı dini məzmunlu elementləri də özündə birləşdirir. Bellah, sivil din konsepsiyasının əsasını təşkil edən və bu sahədə ən təsirli fiqurlar sayılan Durkheim və Russoyun baxışlarını mənimsədiyini nümayiş etdirir və sivil dinin mövcudluğunu konkretləşdirərək Amerikan cəmiyyətində onun varlığını vurğulayır. Bu kontekstdə, Amerikada sivil din özünü prezidentlik, vətəndaşlıq, din, milli bayramlar, Amerika tarixində mühüm şəxsiyyətlər, Tanrı, müqəddəs zaman və məkanlar kimi müxtəlif mövzularda büruzə verir. Bu hadisələrə verilən mənalar və onların daşıdığı əhəmiyyət dini, mədəni, mifoloji və milli hisslərin vəhdətindən qaynaqlanır [Çiçek, 2023, 642-647]. R.Bellah hesab edir ki, Amerika sivil dini heç vaxt antiklerikal (kilsə əleyhdarı) və ya qatı sekulyarist olmamışdır. Əksinə, dini ənənələrdən elə nümunələri seçib-almışdır ki, sıravi bir amerikalı üçün ikisi arasında heç bir ziddiyyət yaranmamışdır. R.Bellahın təqdim etdiyi sivil din nəzəriyyəsində ABŞ dövlətinə sanki müqəddəs missiya verildiyi aydın nəzərə çarpır. ABŞ-nin bütün dünyaya sülh və azadlıq gətirəcəyi iddiaları məhz amerikasayağı sivil dinin xarakterindən irəli gəlir. Amerika sivil dinində xüsusi yeri olan "Tanrının təbəəliyində vahid xalq" və "Yer kürəsində Tanrının iradəsini həyata keçirən xalq" anlayışları da da bunu açıq şəkildə göstərir [Qənbərov, 2024, 120-121]

XX əsrin sonlarında isə Müstəqillik Günü yürüşlər, konsertlər və işıq şouları ilə qeyd olunmağa davam etmiş, siyasi alət funksiyasını böyük ölçüdə itirsə də, ABŞ-ın milli gücünün və "Amerikalı kimliyi"nin qüdrətli simvolu kimi mövcudluğunu qoruyub saxlamışdır. Bu baxımdan, Müstəqillik Günü də Durkheimçi mənada sivil dinin bir nümunəsi olaraq cəmiyyətin birləşdirici funksiyasını yerinə yetirməyə davam edir.

ABŞ-ın müstəqilliyinin 200-cü ildönümünün qeyd edildiyi 1976-cı il, Amerikan sivil dini mövzusunda müzakirələrin ən qızğın olduğu dövr kimi tanınır. Vyetnam müharibəsi, Watergate qalmaqalı və Riçard Niksonun istefası, sivil din məsələsinin gündəmə gətirilməsində əsas rol oynayan hadisələr sırasında idi. Buradakı əsas mübahisə, sivil dinin tarix və nəzəriyyə baxımından araşdırılması deyil, əksinə, Amerika həyat tərzində reallıq olaraq

mövcud olan və təsirli bir faktor kimi çıxış edən sivil dinin özü idi. Bu mübahisə sivil dini milli həmrəyliyin və vətəndaşlıq tərbiyəsinin vasitəsi kimi görənlər ilə onu din və millətçiliyin təhlükəli sintezi hesab edənlər arasında cərəyan edirdi. Bu müzakirələrə biganə qalmayan Bellah, ABŞ-da sivil dinin onun nəzərdə tutduğu ideal formadan uzaqlaşdığını qəbul etmiş və bu pozulmuş halını tənqid etmişdir. 1975-ci ildə nəşr etdirdiyi The Broken Covenant adlı əsərinin ön sözündə Amerika cəmiyyətinin öz ideallarından uzaqlaşaraq, duyğusuz və sərt bir mahiyyət aldığını qeyd edir. O bildirir ki, sivil dini millətçi bir kult yaratmaq üçün deyil, Amerikanın həyat təcrübəsini transsendental dini dəyərlər kontekstində şərh etmək üçün istifadə etmişdir. Lakin gəlinən nöqtədə bu anlayış "boş və qırılmış bir qabıq" halına çevrilmişdir [Demerath III, 1985, 165].

**4.Nəticə**

Amerikanın sivil dini Robert Bellahın nəzəriyyəsi əsasında ABŞ cəmiyyətinin dini, milli və mədəni simvollarının birləşməsindən yaranan əhəmiyyətli bir sosial fenomen olaraq çıxış edir. Bu sivil din, yalnız dini dəyərlərlə deyil həm də sekulyar təfəkkürlə formalaşmış, xalqın ortaq mənəvi dəyərlərini və məqsədlərini birləşdirərək sosial həmrəyliyin təmin olunmasına töhfə verir. Bellahın fikrincə Amerikanın sivil dini ölkənin cəmiyyətini birləşdirən bir vasitə olaraq həm dini, həm də sekulyar prinsipləri təmsil edir. Lakin müstəqillik günü və digər milli bayramlar kimi simvolların zamanla millətçi və sekulyar elementlərlə qarşılıqlı təsirinin nəticəsində bu sivil dinin ideal forması zamanla pozulmuş və daha çox millətçi bir kult halına gəlmişdir.

Nəticə olaraq Amerikanın sivil dini, müasir cəmiyyətlər üçün əhəmiyyətli bir təhlil modeli təqdim edir. Bu model həm dini, həm də siyasi həyatın qarşılıqlı təsirini başa düşməyə imkan verir. Eyni zamanda dövlətin vətəndaşla münasibətini və cəmiyyətin sosial bütövlüyü barədə daha dərindən bir anlayış formalaşdırır. Amerikanın sivil dini yalnız ABŞ daxilində deyil bütün dünyada dini və siyasi həyatın təhlilinə dair qiymətli bir nümunə təqdim edir. Müasir cəmiyyətlərin inkişafında mərkəzi rol oynamağa davam edir.

## ƏDƏBİYYAT

1. Qənbərov, A. (2024). Sivil din və siyasi dinin nəzəri problemləri: J.J. Russo, E. Dürkheym və R. Bellahın "sivil din" anlayışlarının müqayisəli təhlili. *Din Araşdırmaları Jurnalı*, 7, 101–132.
2. Qənbərov, A. (2022). *Din sosiologiyası: ali məktəblər üçün dərslik* (288 s.). Bakı: AVE Print MMC.
3. Akdemir, F. (2020, Mayıs). Jean Jacques Rousseau'da 'Sivil Din' tasarımı bağlamında din-siyaset ilişkisi. *FLSF Felsefe ve Sosyal Bilimler Dergisi*, (29), 283–302.

**4.** Ataman, K. (2014). Doç. Dr. Kemal Ataman ile "Sivil Din" üzerine bir söyleşi. *Bülent Ecevit Üniversitesi İlahiyat Fakültesi Dergisi, 1*(2), 151–165.
**5.** Çekin, A. (2013). Batıda ve Türkiye'de sivil toplum və din. *Bilimname, 13*(2), 23–43.
**6.** Düzce, M. (2020). Sivil din və politik din kavramlarına teorik bir bakış. *Bilimname*, (41), 385–411.
**7.** Çiçek, Ö. (2022). Sivil dinden politik dine teopolitik haller. *Artuklu Akademi, 9*(2), 223–236.
**8.** Çiçek, Ö., & Kıvrak, E. (2023). Kültürel sivil dinden politik sivil dine: Amerikan sivil dininin dönüşümü. *Din ve Ahlak Araştırmaları Dergisi, 23*(2), 623–650.
**9.** Ataman, K. (2014). Ulus olmanın kutsal temeli: Sivil din. *Hitit Üniversitesi İlahiyat Fakültesi Dergisi, 11*(2), 183–186.
**10.** Ataman, K., & Vaughan, K. (2017). When "civil religion" becomes "political religion": The special case of Great Britain. *İlahiyat Fakültesi Dergisi, 58*(2), 145–159.
**11.** Demirel, N. (2019). Post sivil toplum. *Sosyal Bilimler Araştırma Dergisi*, 2, 1–9.
**12.** Bellah, R. (2006). Civil Religion in America. *Daedalus*, 40–53.
**13.** Demerath III, N. J., & Williams, R. H. (1985). Civil Religion in an Uncivil Society. *The Annals of the American Academy of Political and Social Science: Religion in America Today*, 154–166.
**14.** Russo, J.-J. (2022). *İctimai Müqavilə* (Tərc. F. Abbaslı). Bakı: Qanun Nəşriyyatı.

## REFERENCES

**1.** Ganbarov, A. (2024). Theoretical problems of civil religion and political religion: A comparative analysis of the concept of "civil religion" by J. J. Rousseau, E. Durkheim, and R. Bellah. *Journal of Religious Studies*, 7, 101–132. (in Azerbaijani)
**2.** Ganbarov, A. (2022). *Sociology of religion: Textbook for higher education institutions* (p.288). Baku: AVE Print MMC. (in Azerbaijani)
**3.** Akdemir, F. (2020, May). Religion–politics relationship in the context of the design of 'civil religion' in Jean-Jacques Rousseau. *FLSF Journal of Philosophy and Social Sciences*, (29), 283–302. (in Turkish)
**4.** Ataman, K. (2014). An interview with Assoc. Prof. Dr. Kemal Ataman on "Civil Religion". *Bülent Ecevit University Faculty of Theology Journal, 1*(2), 151–165. (in Turkish)

**5.** Cekin, A. (2013). Civil society and religion in the West and in Turkey. *Bilimname*, *13*(2), 23–43. (in Turkish)
**6.** Duzce, M. (2020). A theoretical view of the concepts of civil religion and political religion. *Bilimname*, (41), 385–411. (in Turkish)
**7.** Cicek, O. (2022). From civil religion to political religion: Theopolitical states. *Artuklu Academy*, *9*(2), 223–236. (in Turkish)
**8.** Cicek, O., & Kivrak, E. (2023). From cultural civil religion to political civil religion: The transformation of American civil religion. *Journal of Religion and Ethics Studies*, *23*(2), 623–650. (in Turkish)
**9.** Ataman, K. (2014). The sacred foundation of being a nation: Civil religion. *Hitit University Faculty of Theology Journal*, *11*(2), 183–186. (in Turkish)
**10.** Ataman, K., & Vaughan, K. (2017). When “civil religion” becomes “political religion”: The special case of Great Britain. *Faculty of Theology Journal*, *58*(2), 145–159. (in Turkish)
**11.** Demirel, N. (2019). Post-civil society. *Journal of Social Sciences Research*, 2, 1–9. (in Turkish)
**12.** Bellah, R. (2006). Civil religion in America. *Daedalus*, 40–53. (in English)
**13.** Demerath III, N. J., & Williams, R. H. (1985). Civil religion in an uncivil society. *The Annals of the American Academy of Political and Social Science: Religion in America Today*, 154–166. (in English)
**14.** Rousseau, J.-J. (2022). *The social contract* (Trans. by F. Abbasli). Baku: Qanun Publishing. (in Azerbaijani)